# İki qardaş yan-yana

## İlham Əliyev dünyada tayı-bərabəri olmayan Azərbaycan-Türkiyə strateji müttəfiqliyini ən yüksək zirvəyə qaldırıb



**Tarixi köklərə dayanan Azərbaycan-Türkiyə əlaqələri Ulu Öndər Heydər Əliyevin dövründə inkişaf edərək iki qardaş, dost ölkə səviyyəsinə yüksəlib. Ümummilli Liderin Türkiyə prezidentləri ilə səmimi dostluq münasibətləri bu əlaqələrin inkişafına təkan verməklə yanaşı, yeni mərhələnin əsasını qoyub.**

Bünövrəsi Heydər Əliyev tərəfindən qoyulan iki qardaş ölkənin əlaqələri bu gün ənənəyə sadiq olaraq Prezident İlham Əliyevin fəaliyyəti sayəsində yüksələn xətlə inkişaf edir. Dövlətimizin başçısı Türkiyə ilə münasibətlərin hər şeydən öncə səmimi dostluq və qardaşlıq münasibətlərinə dayandığını dönə-dönə vurğulayır. İnkişaf etmiş əlaqələrin nəticəsidir ki, hər iki ölkə şad gündə də, dar gündə də bir-birinin yanındadır.

### Əsl qardaşlıq nümunəsi

İlham Əliyevin prezidentliyi dövründə qardaş Türkiyə ilə əlaqələr inkişaf edərək ən yüksək zirvəyə çatıb. Demək olar ki, bütün sahələrdə Türkiyə ilə sıx əməkdaşlıq mövcuddur. Bu qardaşlığın, dostluğun, dəstəyin 44 günlük Vətən müharibəsində şahidi olduq.

Müharibə başladığı gündən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və digər dövlət rəsmiləri Azərbaycanın haqq savaşında yanında olduqlarını və sona qədər ölkəmizi dəstəklədiklərini ifadə etdilər. 44 gün ərzində hər bir Türkiyə vətəndaşı Azərbaycanla ürəklərinin bir döyündüyünü, savaşda daim bizə dəstək olduqlarını müxtəlif şəkildə bəyan etdilər. Müharibədən sonra Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında başladığı bərpa və yenidənqurma işlərinə də daim dəstək ola biləcəklərini bildirdilər.

### Türkiyə-Azərbaycan birliyi bölgəyə sabitlik gətirir

Prezident İlham Əliyev də Türkiyənin dəstəyini daim yüksək qiymətləndirir. Hələ müharibə davam etdiyi vaxtda dövlətimizin başçısı müsahibəsində qeyd etmişdi ki, Azərbaycan-Türkiyə münasibətləri yüksək səviyyədədir, qardaş ölkə daim yanımızdadır.

Türkiyə - Azərbaycan birliyi bölgəyə sabitlik gətirir: "Mən bunu dəfələrlə demişəm. Türkiyədə də demişəm, Azərbaycanda da. Əziz qardaşım Prezident burada olanda demişəm ki, Türkiyə-Azərbaycan birliyi bölgə üçün sabitlik gətirir. Əgər toqquşmaların ilk saatlarında Türkiyədən bu dəqiq mesajlar gəlməsəydi, bəlkə də, bu işlərə başqaları qarışa bilərdilər. Türkiyənin bu mesajları hər kəsə "dur" dedi. Azərbaycan tək deyil. Türkiyə işin sonuna qədər Azərbaycanın yanındadır. Əlbəttə ki, bu gün Azərbaycan-Türkiyə birliyi artıq çox ciddi geosiyasi amilə çevrilibdir və bu, müsbət amildir. Bizim birliyimiz heç kəsə qarşı yönəlməyib. Bizim birliyimiz hər hansı bir ölkənin maraqlarına qarşı deyil. Biz, sadəcə olaraq, öz maraqlarımızı müdafiə edirik, öz yolumuzu davam etdiririk", - deyə dövlətimizin başçısı bildirmişdir.

Xatırladaq ki, Prezident İlham Əliyevin Türkiyəyə ilk rəsmi səfəri 2004-cü il 13-15 aprel tarixlərində baş tutmuşdu. Səfər zamanı İlham Əliyev Türkiyə Prezidenti Əhməd Sezərlə görüşmüşdü. Sonra geniş tərkibdə görüş olmuş, sənədlərin imzalanma mərasimi keçirilmişdi. Səfər çərçivəsində Azərbaycan və Türkiyə arasında birgə bəyanat, mülki aviasiya və mədəniyyət sahəsində əməkdaşlığa dair protokollar və digər vacib sənədlər imzalanmışdı.

5-6 noyabr 2008-ci il tarixdə Prezident İlham Əliyev Türkiyə Prezidenti Abdulla Gülün dəvəti ilə bu ölkədə yenidən rəsmi səfərdə olub. Noyabrın 5-də Türkiyə Prezidentinin iqamətgahında - Çankaya köşkündə Prezident İlham Əliyevin və həmkarı Abdulla Gülün təkbətək görüşü keçirilib və dövlət başçısı Ankara şəhərinin Batıkent məhəlləsindəki Heydər Əliyev küçəsinin açılışında iştirak edib, habelə Heydər Əliyev parkı və Heydər Əliyev adına ibtidai məktəblə tanış olub.

Azərbaycan-Türkiyə əməkdaşlığı özünü neft-qaz sahəsində böyük layihələrin icrasında da göstərir. Regionun inkişafı üçün birlikdə bir çox böyük layihələr həyata keçirilib. Bunlara nümunə kimi Bakı-Tbilisi-Ərzurum qaz kəmərini, Cənubi Qafqaz Boru Kəmərini (CQBK), həmçinin Baki-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilməsini göstərə bilərik.

Ölkələrimiz arasında inkişaf edən əməkdaşlığın nəticəsi olaraq azərbaycanlı və türkiyəli iş adamları, şirkətlər də qarşılıqlı olaraq investisiya qoymağa meyillidirlər. Elə bunun nəticəsidir ki, Azərbaycan Türkiyə iqtisadiyyatına indiyədək 19,5 milyard ABŞ dolları, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12 milyard ABŞ dolları həcmində investisiya qoyub. Hazırda Türkiyədə 2000-ə yaxın Azərbaycan, Azərbaycanda isə 4100-dən çox Türkiyə şirkəti fəaliyyət göstərir. İki ölkənin ticarət dövriyyəsinin illik dəyəri 2016-cı ildə 2,3 milyard dollar olduğu halda, 2021-ci ildə təqribən 5 milyard dollar təşkil edib və bu dəyər artmaqdadır.

### Azərbaycan-Türkiyə qardaşlığının zirvəsi

Azərbaycan-Türkiyə münasibətlərinin zirvəsini isə, şübhəsiz ki, Şuşa Bəyannaməsi təşkil edir. 100 illik tarixə malik Qars müqaviləsinə sadiqliyi nümayiş etdirən, həmçinin əməkdaşlıq və əlaqələrin müttəfiqlik səviyyəsinə çatmasını özündə ehtiva edən Şuşa Bəyannaməsi, eyni zamanda iki dövlətin, iki qardaş ölkənin münasibətlərinin ən yüksək səviyyədə olduğunun dünyaya bəyanı idi. Sənəd 2021-ci il iyunun 15-də mədəniyyət beşiyimiz Şuşada Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalandı. Tarixi münasibətlərin yeni mərhələsinin əsasını qoyan bu sənəd 9 fevral 1994-cü il tarixdə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixdə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, hərbi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini özündə ehtiva edir.

Sənədə əsasən tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək, silahlı qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaq.

### Qardaşlığa, dostluğa söykənən münasibətlərin sarsılmazlığı

Ümumiyyətlə, sənəddə müxtəlif sahələrdə ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivləri nəzərdə tutulub. Eyni zamanda bəyannamədə bir daha bu münasibətlərin tarixi köklərə dayandığının sübutu olaraq Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Ümummilli Lider Heydər Əliyevin söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyi xüsusi vurğulanır.

Azərbaycan və Türkiyə qardaşlığının zirvəsi hesab olunan müttəfiqlik münasibətlərini müəyyənləşdirən bəyannaməni sarsılmaz birliyimizi bir daha təsdiq edən mühüm tarixi addım kimi qiymətləndirən Prezident İlham Əliyev qeyd edib ki, bu sənəd Azərbaycan-Türkiyə əlaqələrinin inkişafının konseptual istiqamətlərini müəyyən edərək, gələcək müştərək müvəffəqiyyətlərimizə yol açan yeni mərhələnin əsasını qoyub.

Azərbaycan və Türkiyə hər zaman müxtəlif kürsülərdə bir-birilərinə arxa-dayaq olublar. İlham Əliyev Türkiyə ilə münasibətləri dünyada bərabəri olmayan dostluq və qardaşlığın ən gözəl nümunəsi hesab edərək bildirib ki, Azərbaycan-Türkiyə münasibətlərinin, müttəfiqliyinin inkişafı və möhkəmlənməsində Rəcəb Tayyib Ərdoğanın xidmətləri əvəzsizdir.

Ümumiyyətlə, hər bir sahədə Azərbaycan Türkiyə münasibətlərinin müttəfiqlik səviyyəsində olduğunu görmək mümkündür. Bu isə düzgün, düşünülmüş xarici siyasətin əsası, həmçinin İlham Əliyevin siyasətdənkənar qardaşlığa, dostluğa söykənən münasibətinin bariz nümunəsidir.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*